PARADIGMA, No.3, 2025, səh.15-20
https://doi.org/10.30546/30015.2025.3.009

# GÜCLÜ AZƏRBAYCAN MULTİKULTURALİZMİ

**A.H. Nadirov, G.C. Zalıyeva**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71, Bakı, Azərbaycan
e-mail: Afig.Nadirov@au.edu.az, Gozal.Zaliyeva@student.au.edu.az

**Xülasə.** Multikulturalizmin zəif forması assimilyasiya və "titul mədəniyyət"in üstünlüyünü əsas götürürsə, güclü forması azlıqların hüquq və mədəni avtonomiyasını təmin edir. Fransa və Yaponiya kimi ölkələrdə zəif model, Kanada və Estoniya kimi ölkələrdə isə güclü model tətbiq olunur. Azərbaycan isə hüquqi baza, dövlət dəstəyi və beynəlxalq əməkdaşlıqla dünyaya güclü multikulturalizm nümunəsidir.

**Açar sözlər:** Azərbaycan dövlətlətçiliyi, multikulturalizm siyasəti, çoxmədəniyyətlilik, dövlət siyasəti, Azərbaycan multikulturalizmi.

## Giriş

Cəmiyyətdə mövcud olan etnik-mədəni müxtəlifliyə dövlət siyasəti və ictimai yanaşmaya əsasən multikultralizm siyasətinin zəif və güclü formaları mövcuddur. Multikulturalizmin zəif forması mədəni müxtəlifliyi yalnız fərdi hüquqlar çərçivəsində tanıyır və əsas göstəricisi azadlıqların bərabərliyidir. Onun əsas xüsusiyyətləri belədir:

1. Dövlətin dəstəyinin neytral olması
2. İnkluzivlik deyil, assimlasiyanın ön planda tutulması
3. "Titul mədəniyyət"in üstünlük təşkil etməsi

İnsanlar yaşadıqları cəmiyyətdə mövcud şəraitdən yararlanmaq (bütün sahələrdə fəal iştirak edə bilmək) üçün titul etnosun dilini, adət-ənənəsini, mədəniyyətini mənimsəyir və bu cəmiyyətə "inteqrasiya" olunmağı əsas vacibiyyət hesab edir. Bunun ən yaxşı nümunəsini Fransanın mədəni müxtəliflik siyasətində görmək mümkündür. Fransa öz vətəndaşlarını fərd kimi tanısa da, onlara (etnik və dini kimliklərə) rəsmi status vermir. Dünyəvi və vahid vətəndaşlığı üstün tutur. Bu siyasət "Laiklik" prinsipinə əsaslanır. 15 mart 2004-cü ildə təhsil müəssələrində "dini neytrallığın qorunması" məqsədilə hicabın qadağan olunması buna bariz nümunədir [1].

Digər nümunə isə Yaponiyadakı "Monoetnik cəmiyyət" prinsipidir [2]. Yaponiyada xarici və etnik azlıqlara qarşı güclü assimilyasiya və ya kənarda saxlama (izolyasiya) siyasətləri müşahidə olunur (məsələn, Aynu xalqı, Koreyalı azlıqlar).

Güclü multikultralizm siyasətində dövlət azlıqların hüquqlarını qanunvericiliklə qoruyur, təhsil, media, siyasət sahələrində bərabər təmsilçiliyə imkan yaradır, azlıqlara öz dillərində xidmət, təhsil imkanı tanıyır. Onun əsas xüsusiyyətləri belədir:

1. Mədəni azlıqların hüqüqlarınının tanınması

2. Mədəni avtonomiya (əraziyə bağlı olmadan mədəni hüquq üzərindən həyata keçirilən özünüidarə forması). Buna 1925-ci ildə Estoniyada qəbul edilmiş "Milli azlıqlar üçün mədəni avtonomiya" qanununu misal göstərə bilərik [3].

3. Plüralizmin dövlət siyasətinə çevrilməsi

1971-ci ildə Kanada hökuməti (Baş nazir Pierre Elliott Trudeau) "Multiculturalism as an Official Policy" adlı siyasəti qəbul etdi. Bu qərarla Kanada dünyada ilk dəfə multikulturalizmi dövlət siyasətinə çevirən ölkə oldu [4].

Multikultraizmin zəif və güclü formasından bəhs edərkən avstraliyalı siyasi nəzəriyyəçi professor Çandran Kukatasın yanaşmasına nəzər salmaq vacibdir. Belə ki, Kukatas fərdi vicdan azadlığına əsaslanan zəif multikulturalizm modelini sabit hesab edir, dövlətin mədəniyyətlərə müdaxilə etmədən, fərdlərin seçim hüququnu qorumaqla da ədalətli bir cəmiyyət quracağına inanır.

**Tədqiqat**

Azərbaycan multikultralizm modelinə nəzər saldıqda, onun bir çox güclü cəhətlərini sadalamaq mümkündür:

- Multikulturalizmi dövlət siyasəti olaraq qəbul edib. 15 may 2014-cü ildə Bakı Beynəlxalq Multikultralizm Mərkəzi təsis edilib. Bu mərkəzdə multikultralizm sahəsində beynəlxalq və ölkə əhəmiyyətli tədbirlər həyata keçirilir, müxtəlif dini və etnik icmaların mədəni irsi qorunub saxlanılır və təbliği həyata keçirilir [5]. Prezidentin sərəncamı ilə 2016-ci ilin ölkədə "Multikultralizm ili" elan edilməsi bu prosesin məntiqi davamıdır.

- Azsaylı xalqlara və etnik qruplara qanunvericilik səviyyəsində dəstək verilir. Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsi bərabərlik hüququ ilə bağlıdır. Bu maddə vətəndaşların hüquq və azadlıqlarının irqi, milli, dini, dil, cins, mənşə, əqidə və s. əsaslarla məzmun və tətbiq baxımından ayrı-seçkiliyə məruz qalmamasını təmin edir [6].

- "Azərbaycan milli azlıqların hüquqları" haqqında Qanun (16 iyun 1992-ci il) Azərbaycanda yaşayan talışlar, ləzgilər, avarlar, yəhudilər, ruslar, gürcülər və digər milli azlıqların hüquqlarının konstitusion səviyyədə tanınması və müdafiəsini təmin edir. Bu, multikulturalizmin hüquqi əsası sayılır [7].

- Dövlət Proqramları qəbul edilib (məsələn, 2006-2010, 2016-2020-ci illər üçün Dövlət Proqramları).

- Qəbələnin Nic kəndində yerləşən Alban-Udi Xristian Dini İcması 2003-cü ildə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən rəsmi

qeydiyyatdan keçmişdir [8]. Nic kəndində təxminən 3700-4400 udi yaşayır və burada udi dilində ibadət icra olunur, ibtidai siniflərdə muxtar dil təhsili var.

- Azərbaycanda olan müxtəlif dinin nümayəndələri olan katoliklər, pravoslavlar (ortodoks), yəhudilər üçün öz dini ibadətlərini yerinə yetirmələri üçün müvafiq dini məkanların mövcudlluğu bunun bariz nümunələrindəndir. Azərbaycanda dövlət qeydiyyatına alınmış 942 dini qurum fəaliyyət göstərir. Onlardan 907-si İslam, 35-i qeyri-islam təmayüllü (24-ü xristian, 8-i yəhudi, 2-si bəhai və 1-i krişna şüuru) dini qurumlardır. Qrafikdə göstərilən Azərbaycanda kilsələr və sinaqoqların fəaliyyəti güclü multikulturalizm siyasətinə bir nümunədir [9]:

| **Dini icmalar** | **Dini məkanlar** |
|---|---|
| Katolik | The Church of the Virgin Mary's İmmacualete Conseption, A Parish of Saint John Paul II, Chapel at the Sisters of Charity Shelter |
| Ortodoks | Holy Myrrhbearers Cathedral, Church of Michail the Archangel, Alexander Nevsky Church |
| Protestant | Evangelicial/Vineyard icması, Saviour Evangelic Luteran Church, New life Church Baptist Church |
| Yəhudi | European&Georgian Sinaqoqu, Aşkenazi Sinaqoqu, Dağ Yəhudiləri Sinaqoqu, Qırmızı Qəsəbə Sinaqoqu (Altıgünbəz Sinaqoqu) |

- Azərbaycanda 2017-ci ilin statistikasına əsasən, 40 universitetdə bakalavr səviyyəsində "Multikulturalizmə giriş", magistratura səviyyəsində "Azərbaycan multikulturalizmi" fənnləri tədris olunur.
- "Dostluq klubları", "Etnik günlər", "Mədəniyyətlərarası görüşlər" kimi layihələr həyata keçirilir. Qəbələ, Lənkəran, Oğuz, Qax regional məktəblərində "Mədəni körpü günləri" təşkil edilir [10].

Azərbaycanda etnik azlıqların dilləri müəyyən bölgələrdə seçmə fənn və ya fakultətiv dərs kimi tədris olunur [11]:

| **Lerik rayonu** | **Qusar rayonu** | **Oğuz rayonu** | **Zaqatala rayonu** | **Astara rayonu** |
|---|---|---|---|---|
| Orand kənd tam orta məktəbi | 1 saylı orta məktəb | Muxas kənd tam orta məktəbi | Danaçı kənd tam orta məktəbi | Siyəkü kənd tam orta məktəbi |
| Talış dili | Ləzgi dili | Udi dili | Avar dili | Talış dili |

- Bakı Beynəlxalq Humanitar Forumu [12]. Bakı Beynəlxalq Humanitar Forumlarının multikulturalizm məsələləri ilə bağlı qısa proqramı:

| | **Tarix** | **Əsas istiqamət** |
|---|---|---|
| I | 10-11 oktyabr 2011-ci il | "Multikultralizm:nailiyyətlər və problemlər" |
| II | 4-5 oktyabr 2012-ci il | "Multikultralizm və özünüdərk" |
| III | 31 oktyabr 2013-cü il | "Multikultralizm və özgünlük". Cəmiyyətdə dəyər konsensusu axtarışında |
| IV | 2-3 oktyabr 2014-ci il | "Multikulturalizm müqayisəli tətqiqləri". Nəzəriyyədən təcrübəyə doğru |
| V | 29 sentyabr 2016-cı il | "Multikultralizmin müxtəlif modelləri" |
| VI | 25-26 oktyabr 2018-ci il | "Multikulturalizm siyasəti". Cəmiyyətdə sabitliyin təminatı amili kimi |

- Dünya Dini Liderlərinin Bakı Zirvə Görüşü və "Bakı Bəyannaməsi" [13]. Dinlər və mədəniyyətlər arasında qarşılıqlı anlaşma, tolerantlıq və əməkdaşlığın təşviqi məqsədi daşıyır.

| | **Tarixi** | **Müzakirə mövzusu** |
|---|---|---|
| **I Zirvə Görüşü** | 26 aprel 2010-cu il | Din, ənənəvi dəyərlər |
| **II Zirvə Görüşü** | 14-15 noyabr 2019-cu il | Terrorizmlə mübarizə, ksenofobiya |
| **III Zirvə Görüşü** | 5 noyabr 2024-cü il | İqlim dəyişkənliyi böhranınına dinlərin baxışı |

Azərbaycanın multikulturalizm siyasətinin həyata keçirilməsində aşağıdakı beynəlxalq sənədləri və konvensiyaları ratifikasiya edir:

- BMT-nin İnsan Hüquqları üzrə Ümumi Bəyannaməsi (1948). Azərbaycan bu prinsipləri qəbul edir və milli qanunvericilikdə əks etdirir (2010-cu il).
- BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktı (13 avqust 1992)
- BMT-nin İrqi ayrı-seçkiliyinin bütün formalarının ləğv olunması haqqında Konvensiyası (16 avqust 1996).
- BMT-nin Uşaq Hüquqları Konvensiyası (13 avqust 1992).
- Avropa Şurasının Mədəniyyətlərarası dioloq Proqramı və Azlıqların Hüquqularının Müdafiəsi ilə bağlı sənədllərə üzv kimi qoşulub.
- UNESCO-nun Mədəni Müxtəlifliyin Qorunması və Təşviqi Haqqında Konvensiyasını 2010-cu ildə ratifikasiya etmişdir.

**Nəticə**

Azərbaycan hüquqi təminat, dövlət siyasəti, mədəni və dini müxtəlifliyə hörmət, praktiki institutlar və beynəlxalq əməkdaşlıq sayəsində güclü multikultralizm modelini uğurla tətbiq edən bir dövlətdir. Tarixən fərqli mədəniyyətlərin təzahür etdiyi bu ölkədə tolerantlığa əsaslanan multikulturalizm formalaşmış və dünya ölkələrinə "Azərbaycan multikulturalizm modeli" kimi örnək olmuşdur.

**Ədəbiyyat**

1. https://en.wikipedia.org/wiki/French_law_on_secularity_and_conspicuous_religious_symbols_in_schools
2. https://en.wikipedia.org/wiki/Demographics_of_Japan
3. https://estonianworld.com/
4. https://az.wikipedia.org/wiki/Multikulturalizm_Kanadada
5. https://azerbaijan.az/news/569
6. https://e-qanun.az/framework/897
7. https://e-qanun.az/framework/7762
8. https://qebele-ih.gov.az/en/news/1190.html
9. https://modern.az/aktual/251053/azerbaycanda-mescid-kilse-ve-sinaqoqlarin-sayi-aiqlandi/
10. https://scara.gov.az/az/xeber/maariflendirme/multikulturalizm/insanliga-gencliye-ve-multikulturalizme-sevgi-ile
11. https://www.trims.edu.az/site/resource.php?id=1971
12. https://az.m.wikipedia.org/wiki/Bak%C4%B1_Beyn%C9%99lxalq_Humanitar_Forumu
13. https://lider-media.az/index.php?newsid=6526&

**STRONG AZERBAIJAN MULTICULTURALISM**

**A.H. Nadirov, G.J. Zaliyeva**
Azerbaijan University, Jeyhun Hajibeyli 71, Baku, Azerbaijan

**Abstract.** While the weak form of multiculturalism is based on assimilation and the dominance of "title culture", the strong form ensures the rights and cultural autonomy of minorities. The weak model is applied in countries such as France and Japan, and the strong

model is applied in countries such as Canada and Estonia. Azerbaijan, on the other hand, is an example of strong multiculturalism to the world with its legal framework, state support, and international cooperation.

**Keywords:** Azerbaijani statehood, multiculturalism policy, multiculturalism, state policy, Azerbaijani multiculturalism.